№ 89 (3931) 18 may 2018-ci il

# Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi yüksəliş yolu

**Yaxın Şərqdə ölkəmizə ilk demokratik dövlət adı qazandıran Azərbaycan Xalq Cümhuriyyətinin varlığı qısa bir dövrü əhatə etsə də, onun fəaliyyət və əməllərini ənilliklərə belə sığdırmaq mümkündür. Yarandığı vaxtdan adını tam doğruldan bu Cümhuriyyət sözün əsl mənasında xalqın hakimiyyəti oldu. Azərbaycanda demokratik inkişaf ənənələrinin əsasının qoyulması, insanların bərabərliyi prinsiplərinin Yaxın Şərqdə ilk dəfə bərqərar olması, ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, cinsi, sinfi bərabərsizliyin ortadan qaldırılması Xalq Cümhuriyyətinin tariximizə qızıl hərflərlə gətirdiyi yeniliklərdir.**



## Milli iqtisadiyyatın formalaşmasında böyük uğurlar

Demokratik dəyərlər üzərində köklənmiş dövlət quruculuğu, o cümlədən Azərbaycanın ilk parlamenti və hökuməti, dövlət aparatının təşkil olunması, dövlət sərhədlərinin müəyyənləşdirilməsi də Xalq Cümhuriyyətinin xidmətləri sırasında yer alır. Bu gün başımızın üzərində dalğalanan və böyük qurur mənbəyimiz olan bayrağımız, himn və gerbimizin yaradılması, ana dilinin dövlət dili elan olunması, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlanması da cümhuriyyətin Azərbaycana ötən əsrin əvvəllərində verdiyi töhfələrdəndir. Azərbaycanın ilk universitetini təsis edən, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirən cümhuriyyət qurucularının diqqət mərkəzində saxladığı prioritet istiqamətlərdən biri də dinamik iqtisadi tərəqqi, əhalinin sosial rifah halının yüksəldilməsi ilə bağlı idi.

Uzun illər çar Rusiyasının əsarəti altında qalan, eyni zamanda erməni qətliamlarının geniş vüsət aldığı bir ölkədə milli iqtisadiyyatın formalaşdırılması prosesi o qədər də asan məsələ deyildi. Amma Xalq Cümhuriyyəti digər sahələrdə olduğu kimi, qısa dövr ərzində qeyd olunan istiqamətlərdə böyük uğurların müəllifinə çevrilə bildi. Qısaca olaraq bunu Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Akif Musayev belə izah edir: "Xalq Cümhuriyyətinin apardığı iqtisadi islahatlar ilk növbədə sosial ədalətin istehsal vasitələri üzərində mülkiyyət formaları vasitəsilə bərqərar edilməsinə gətirib çıxardı. Mövcud olduğu 23 ay ərzində Xalq Cümhuriyyəti bir sıra cari təsərrüfat və mədəniyyət məsələlərinin həllində böyük uğurlar qazandı. Neft sənayesi ağır vəziyyətdən çıxarıldı, xaricdə yüksəkixtisaslı milli iqtisadçı kadrların hazırlanması sahəsində işlər yoluna qoyuldu. Azərbaycan Dövlət Bankı yaradıldı, milli pul nişanları buraxıldı. Müstəqil dövlətin atributu kimi milli pul vahidinin buraxılması AXC-nin maliyyə siyasətinin mühüm tərkib hissəsi idi. 1918-ci ilin əvvəlindən Bakıda yeni kağız pullar olan "Bakı bonları" buraxıldı. O vaxtadək "Nikolay" pulları və "Kerenski" pul vahidləri işlənirdi. Qeyd deim ki, Xalq Cümhuriyyətinin parlamentinin tərkibində bir nəfər də olsun peşəkar iqtisadçı yox idi. Buna baxmayaraq, parlamentin qəbul etdiyi 270 qanundan 23-ü iqtisadiyyatla bağlı olub".

Müstəqil dövlət olaraq varlığını davam etdirmək üçün güclü iqtisadiiyatın qurulması AXC dövründə ön planda yer alırdı. AXC parlamentinin 22 dekabr 1919-cu il tarixli iclasında hökumət rəhbəri Nəsibbəy Yusifbəyovun elan etdiyi yeni kabinetin bəyannaməsində də məhz Azərbaycanın azad və müstəqil yaşamasının şərti kimi güclü iqtisadiyyatın yaradılması zərurəti kimi göstərilirdi. Bu istiqamətdə atılan addımlar isə ölkə iqtisadiyyatında tamamilə yeni bir vəziyyət yaradırdı.

Ümumiyyətlə, Xalq Cümhuriyyətinin ərsəyə gətirdiyi iqtisadi platforma həmin dövr üçün kifayət qədər geniş miqyasa malik idi. Özü də iqtisadi müstəvidə həyata keçrilən siyasətin başlıca parametrlərindən biri bərabərlik prinsiplərini, mülkiyyət plüralizmin gözlənilməsi idi. Söhbət konkret ondan gedir ki, Cümhuriyyət dönəmində dövlət mülkiyyəti, xüsusi, şəxsi, səhmdar, bələdiyyə və digər mülkiyyət formalarının inkişafı üçün bərabər imkanlar yaradıldı. Bütün bunlar Azərbayücan cəmiyyəti üçün yenilik hesab olunurdu. Eyni zamanda məsələyə demokratik yanaşma tərzi sərgiləməklə prosesə həmin vaxt geniş yayılmış bolşevizm mövqeyindən fərqli mövqe ortaya qoyulurdu. Belə ki, AXC-nin iqtisadi siyasətini müəyyən edənlər xüsusi mülkiyyəti qəbul edir, fabrik, zavod, torpaq və digər əsas istehsal vasitələrinin fərdi sahibkarların idarəçiliyi əsasında fəaliyyətini tam məqbul sayırdılar. İqtisadçı, AXC dövründə yaradılan Bakı Dövlət Universitetinin iqtisadiyyat və idarəetmə kafedrasının dosenti Xosrov Kərimov bütün bunların böyük önəm kəsb etdyini vurğulayaraq başqa bir maraqlı məqama diqqət çəkir: "AXC-nin iqtisadi modelində o da nəzərdə tutulurdu ki, xüsusi mülkiyyətin mövcudluğu mülkiyyətin tamamilə xırdalanmasına aparıb çıxarmamalıdır. Xüsusən də fabrik və zavodların bu cür xırdalanması qeyri-mümkün sayılır və qeyd olunurdu ki, burada çalışan əməkçinin işdəki mövqeyi xüsusi surətdə hazırlanan əmək haqqında qanunların tətbiqi ilə təmin olunmalıdır. Həmin dövrdə ərsəyə gətrilən iqtisadi qanunları əsasən də dövlət mülkiyyətinə və qismən də bələdiyyə mülkiyyətinə dövlətin sərvət və gəlir qaynağını təşkil edən yeraltı mədənlər həmçinin dəmiryolu, işıq, su, teleqraf və digər bu kimi ümumi işlərə xidmət edən sahələr daxil edilirdi".

Təbii ki, Cümhuriyyət qurucuları iqtisadi inkişaf məsələsində Azərbaycanın təbii sərvətlərindən faydalanmağın zərurilyini də diqqət mərkəzində saxlayırdılar. Elə bundan irəli gəlir ki, görülən tədbirlər nəticəsində neft sənayesi acınacaqlı vəziyyətdən yeni yüksəliş dövrünə qədəm qoydu. Dünya neft bazarında gedən prosesləri diqqət mərkəzində saxlayan parlament və hökumət neft hasilatı və emalı sahəsində problemlərin aradan qaldırılması istiqamətində kifayət qədər çevik siyasət yürüdürdü. Görülən işlər çıxarılan neftin həcminin yüksəlməsinə ciidi təkan verdi. Neft və neft məhsullarının əsas satış bazarı isə Rusiya və Gürcüstan idi. Həmin dövrdə xüsusən Rusiya bazarının önəmini nəzərə alan Məmməd Əmin Rəsulzadə bolşevik hökuməti ilə birbaşa əlaqələrin yaradılmasını zərur sayırdı. Elə bundan sonra Nəsibbəy Yusifbəylinin təşkil etdiyi hökumət isə öz iqtisadi proqramında bu məqamı xüsusi diqqət mərkəzində saxlamağa başladı. Neftlə yanaşı, iqtisadi inkişaf məsələsində pambıq, meşə materialları kimi təbi sərvətlərin, eləcə də hər cür toxum və tərəvəz, çay, qəhvə, bitki yağı, şərab, duz, sabun, qızıl və gümüş məmulatı, maşın və alətlərin ixracına da xüsusi önəm verilirdi.

## Əhalinin maddi rifah halının yüksəlməsinə yönələn tədbirlər

İqtisadi infrastrukturun iqtisadi inkişafda vacib rolu da AXC-də nəzərə alınan əsas məqamlardan idi. Bakı-Culfa dəmir yolunun inşa olunması, Kür çayı üzərindən körpü salınması, istehsal sahələrinin yaradılması, Xəzər Dəniz Gəmiçiliyinin işi yenidən qurulması və digər məqamları buna real misal kimi göstərmək olar.

Azərbaycanın xarici iqtisadi əlaqələrinin bərpası və inkişaf etdirilməsi istiqamtəində də çoxsaylı addımlar atıldı. Uğurlu beynəlxalq iqtisadi əlaqələrin qurulması inkişafın əsas təməl prinsiplərindən sayılırdı. Xosrov Kərimov bu xüsusda qeyd edir: "AXC-nin İstiqlal Bəyannaməsində xarici ölkələrlə, xüsusən qonşu dövlətlərlə iqtisadi əlaqələr yaratmaq, bu əlaqələri genişləndirmək zərurəti nəzərdə tutulurdu. Təsadüfi deyildi ki, AXC-nin liderləri, ümumiyyətlə, Azərbaycan məsələsinə yalnız bir millət və xalqın məsələsi kimi baxmırdılar. "Müsavat" partiyası öz məramnaməsində Azərbaycanın müstəqilliyi və inkişafında xarici faktorlara çox böyük əhəmiyyət verirdi. AXC-nin iqtisadi platformasında xarici ölkələrlə iqtisadi əməkdaşlığı asanlaşdırmaq, bu sahədə maneələri aradan qaldırmaq, digər tərəfdən isə bu cür əməkdaşlığı dünya təcrübəsi əsasında həyata keçirmək nəzərdə tutulurdu". Bunların nəticəsi olaraq təkcə Qafqaz ölkələri, Rusiya ilə deyil, Orta Asiya, Avropa ölkələri ilə də iqtisadi müstəvidə uğurlu əlaqələr quruldu. Xarici şirkətlərin və sərmyənin Azərbaycana gəlişi stimullaşdırıldı. Gömrük, vergi sahəsində də vacib addımlar atıldı. Kənd təsərrüfatının inkişaf etdirilməsi diqqət mərkəzində idi və hətta bu məqsədlə mikrokreditlərin verilməsi həyata keçrilirdi. Yerli sahibkar və fermerlərin sayı sürətlə artdı.

Həyata keçirilən iqtisadi siyasətin əsas qayəsini isə Azərbaycan vətəndaşı, onun maddi rifah halı təşkil edirdi. Məsələn, ölkə əhalisinin zəruri tələbat malları ilə təmin edilməsi istiqamətində məhz AXC dövründə böyük işlər görüldü. Bu məsələdə gömrük tənzimlənməsindən də geniş istifadə olunurdu. Belə ki, bu və ya digər məhsulun xaricə satışına icazə verilməsi və ya onun qadağan edilməsi zamanı o məhsulun əhali üçün nə dərəcədə zəruri olması diqqətlə nəzərə alınırdı. Eyni zamanda xaricdən ölkəyə gömrüksüz gətirilən malların siyahısı müəyyənləşdirildi, bu siyahıya 200-dən çox məhsulun adı daxil edildi. Belə vəziyyət həmin məhsulların daha ucuz qiymətlə hali tərəfindən istehlak olunmasına imkan yaradırdı. AXC hökuməti inflyasiyanın da əhaliyə təsirlərini minimum həddə endirməyə çalışır, bunun üçün imkan daxilində bütün mümkün tədbirləri görürdü. Pulun inflyasiyasının qarşısını almaq, inflyasiya şəraitində əmək haqqını tənzimləmək məsələsində görülən işlər insanların maddi rifahına müsbət yöndən təsir edirdi. Bundan irəli gəlirdi ki, əməkhaqları davamlı olaraq artırılır, sosial təminatın gücləndirilməsi baxımından ailəli vətəndaşlara ayda 360 manat, digərlərinə isə 120 manat məbləğində əlavə pul vəsaiti verilirdi. O dövrdə Ermənistandan Azərbaycaan köç etməyə məcbur olan 150 mindən artıq soydaşımızın sosial-iqtisadi problemlərinin həlli üçün də vacib tədbirlər həyata keçirilirdi.

Amma daim sülhsevər siyasət aparan AXC-nin ömrü təəssüf ki, uzun çəkmədi, 1920-ci ilin aprel ayındakı bolşevik işğalı iqtisadi və digər sahədə aparılan siyasətin yarımçıq qalması ilə nəticələndi. Cümhuriyyət təcavüzə məruz qaldığı üçün qarşıya qoyduğu məqsədlərə tam çaat bilmədi, lakin onun şüurlarda bərqərar etdiyi müstəqillik ideyası və əsasını qoyduğu ənənələr unudulmadı. Müasir Azərbaycan Respublikası özünün qədim dövlətçilik ənənələrinə sadiq qaldı, ümummilli lider Heydər Əliyev müasir Azərbaycanı Xalq Cümhuriyyətinin siyasi və mənəvi varisi elan etdi. Bu siyasət Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən də uğurla davam etdirilir. Cümhuriyyətin 100 illiyinin ölkə başçısının müvafiq sərəncamı ilə geniş qeyd olunması da bunun daha bir əyani təsdiqidir. Keçmişinə sahib çıxan, varislik ənənələrini qoruyan Azərbaycan bir əsr əvvəlkindən fərqli olaraq indi daha güclü, daha qüdrətli ölkə kimi adını müasir tarixə uğurla həkk etdirir.

***Mübariz BAYRAMOV***

*İqtisadiyyat Nazirliyi tərəfindən KİV nümayəndələri arasında elan edilmiş "Azərbaycan Xalq Cümhuriyyəti dövrünün iqtisadiyyatı" mövzusunda müsabiqəyə təqdim edilir*